BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Sosial-siyasi elmlər seriyası* 2008

# İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ HAQQINDA AVROPA ŞURASININ KONVENSİYASI

**T.İ.İBADOV**
***Bakı Dövlət Universiteti***

İnsan alveri bu gün bütün dünyada, o cümlədən Avropa qitəsində olduqca ciddi bir problemə çevrilmişdir. İnsanların, xüsusən qadın və uşaqların cinsi və ya digər istismar məqsədləri üçün alverinin misli görünməmiş səviyyəyə çatması, təbii ki, bütün Avropa dövlətlərindən qətiyyətli əlaqələndirilmiş addımların atılmasını tələb edir.

Məlum olduğu kimi, Avropa Şurasının əsas fəaliyyət istiqamətlərindən biri insan hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. Bu, Avropa Şurası Nizamnaməsinin 3-cü maddəsində birbaşa əks olunmuşdur. Şübhə yoxdur ki, bu gün insan hüquqları nəzəriyyəsində və praktikasında birmənalı olaraq insan ləyaqətinə və şəxsiyyətinə qarşı ağır cinayət, bəzi hallarda isə köləliyin bir forması kimi tövsif edilən insan alveri Avropa Şurasının söykəndiyi dəyərlərə tamamilə ziddir.

İnsan alveri problemi 1980-ci illərdən başlayaraq Avropa Şurasının gündəliyinə daxil olmuşdur. Həmin vaxtdan bu günə kimi bu regional təşkilat çərçivəsində insan alverinə qarşı mübarizə sahəsində bir çox əməli tədbirlər həyata keçirilmişdir. Əgər ilk illərdə bu tədbirlər, əsasən, maarifləndirmədən və dövlətləri müəyyən fəaliyyəti həyata keçirməyə təşviq etməkdən ibarət idisə, sonralar insan alverinə qarşı mübarizənin tənzimlənməsinə yönəlmiş normativ bazanın formalaşdırılmasına başlandı. Avropa Şurası Nazirlər Komitəsinin «Cinsi istismar məqsədi üçün insan alverinə qarşı mübarizə haqqında» üzv dövlətlərə R (2000) 11 nömrəli Tövsiyəsi bu baxımdan prinsipial əhəmiyyətə malik oldu.

İnsan alverinə qarşı mübarizə sahəsində Avropa Şurasının ən mühüm addımı 2005-ci ilin may ayında Varşava şəhərində keçirilmiş Avropa Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü Zirvə görüşündə atılmış oldu. Mayın 16-da insan alverinə qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası qəbul edildi. Bu son dərəcə vacib sənədin belə bir mötəbər forumda qəbul edilməsi Avropa Şurası çərçivəsində insan alveri probleminə nə qədər böyük əhəmiyyət verildiyni bir daha nümayiş etdirir.

2008-ci il fevralın 1-də qüvvəyə minmiş Konvensiya bu ilin əvvəlinə olan məlumata görə 20 dövlət tərəfindən ratifikasiya edilmişdir. Azərbaycan Respublikası Konvensiyanı imzalamayan 7 dövlətin sırasındadır.

İnsan alverinə qarşı mübarizə sahəsində indiyə qədər qəbul olunmuş digər beynəlxalq-hüquqi sənədlərdən fərqli olaraq, Avropa

Şurasının Konvensiyasında əsas diqqət insan alveri qurbanlarının müdafiəsinə və onların hüquqlarının qorunmasına yetirilmişdir. Konvensiya eyni zamanda insan alverinin qarşısının alınmasına və bə əməli törədənlərin təqib olunmasına yönəlmişdir. Bundan əlavə, Konvensiyada onun müddəalarının həyata keçirilməsinə nəzarət etməli olan səmərəli və müstəqil monitorinq mexanizminin yaradılması nəzərdə tutulmuşdur.

Vacib məqamlardan biri ondan ibarətdir ki, Konvensiya Avropa Şurasına üzv olan dövlətlərlə məhdudlaşmır; 42-ci maddənin 1-ci hissəsinə əsasən, digər dövlətər də Konvensiyanın iştirakçısı ola bilərlər.

Konvensiyanın təsir dairəsi çox genişdir: Konvensiya insan alverinin milli və ya transmilli olmasından, mütəşəkkil cinayətkarlığa aidiyyəti olub-olmamasından asılı olmayaraq, onun bütün formalarına; qurbanın kim olmasından asılı olmayaraq hər kəsə – qadınlara, kişilərə və uşaqlara; eləcə də istismarın bütün formalarına (cinsi istismara, zorla işlədilməyə və ya xidmət göstərməyə məcbur edilməyə və s.) şamil olunur.

Konvensiyada ilk növbədə önləyici tədbirlərə yer ayrılmışdır. İştirakçı dövlətlər tərəfindən həyata keçirilməli olan bu tədbirlərin sırasında aşağıdakıları göstərmək olar:

a) insan alverinin qarşısının alınmasına və onunla mübarizə aparılmasına görə cavabdeh olan müxtəlif dövlət orqanları arasında milli əməkdaşlığın qurulması və möhkəmləndirilməsi;

b) insan alverinin qurbanları, eləcə də bu sahəyə aidiyyəti olan mütəxəssislər üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

c) ölkə ərazisinə miqrasiyanın qanuni surətdə həyata keçirilməsinə imkan yaratmaq üçün zəruri tədbirlərin görülməsi;

ç) insan alverinə daha asan məruz qalan uşaqlar üçün qoruyucu mühitin yaradılması;

d) sərhəd nəzarəti tədbirlərinin gücləndirilməsi;

e) şəxsiyyət sənədlərinin etibarlılığının dəqiq müəyyənləşdirilməsi ilə bağlı zəruri addımların atılması və s.

Konvensiyada vurğulanır ki, yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsinə insan alverinin qarşısının alınmasında və insan alveri qurbanlarına yardım göstərilməsində iştirak edən qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin digər ünsürləri də cəlb olunmalıdırlar.

Yuxarıda qeyd edildiyi kimi, Konvensiyanın xüsusi önəm verdiyi digər məsələ insan alveri qurbanlarının hüquqlarının qorunmasından ibarətdir. Bu geniş məsələ çərçivəsində isə insan alveri qurbanlarının müəyyənləşdirilməsi problemi ön plana çəkilmişdir. Konvensiyanın 10-cu maddəsində bununla bağlı iştirakçı dövlətlərin üzərinə bir sıra mühüm öhdəliklər qoyulmuşdur. İnsan alveri qurbanlarının düzgün tanınması və onların polis və digər dövlət orqanları tərəfindən qanunsuz mühacirlər və ya cinayətkarlar kimi qəbul edilməməsi üçün dövlətlər xüsusi prosedurlar müəyyən etməli, bunun üçün zəruri qanunvericilik və ya digər tədbirlər görməlidirlər.

Bu və ya digər şəxsin insan alverinin qurbanı olduğunu hesab etmək üçün ağlabatan əsaslar varsa, dövlət onun göstərilən cinayətin qurbanı kimi müəyyənləşdirilməsi prosesi bitməyincə həmin şəxsi öz ərazisindən çıxarmamalıdır və eyni zamanda ona aşağıdakı yardımı

göstərməlidir: a) təhlükəsiz yaşayış yeri ilə təmin etmək, psixoloji və maddi yardım göstərmək; b) təcili tibbi yardıma çıxışı təmin etmək; c) başa düşdüyü dildə hüquqları barədə məlumat vermək, lazım olduqda hüquqi yardım göstərmək və s.

Dövlət onun ərazisində qanuni yaşayan və kifayət qədər vəsaiti olmayan insan alveri qurbanlarına lazımi tibbi və ya digər yardımı göstərməli, onların əmək bazarına, peşə hazırlığına və peşə təhsilinə çıxışına imkan yaratmalıdır. Bu şəxslərə bərpa olunmaq və həmin cinayəti törədənlərin təsirindən yaxa qurtarmaq və ya səlahiyyətli dövlət orqanları ilə əməkdaşlıq etmələri barədə qərar qəbul etmək məqsədi ilə ən azı 30 gün ölkə ərazisində qalmağa icazə verilməlidir. Konvensiyaya görə, aşağıdakı situasiyalardan hər hansı birində insan alverinin qurbanına ölkə ərazisində yaşamağa icazə verilmədir:

1) səlahiyyətli dövlət qurumu hesab etsə ki, bu şəxslərin ölkə ərazisində qalmağı onların düşdükləri situasiya baxımından zəruridir;

2) səlahiyyətli dövlət qurumu hesab etsə ki, bu şəxslərin qalmağı istintaq və məhkəmə baxışı zamanı onların müvafiq dövlət orqanları ilə əməkdaşlığı üçün zəruridir.

Konvensiyada müəyyən olunmuşdur ki, iştirakçı dövlətlər öz qanunvericiliyində insan alveri qurbanlarının bu cinayəti törədənlərdən kompensasiya almaq hüququnu nəzərdə tutmalıdırlar. Bundan əlavə, zəruri tədbirlər görülməlidir ki, kompensasiya almaq hüququ, məsələn, zərərçəkmişlərə kompensasiya fondu yaratmaq və ya həmin şəxslərin sosial müdafiəsinə və sosial inteqrasiyasına yönəlmiş tədbirlər, yaxud proqramlar vasitəsilə həyata keçirilsin.

Hər bir iştirakçı dövlət insan alveri qurbanlarının özəl həyatını və şəxsiyyətini qorumalıdır. Xüsusən bu vəziyyətdə olan uşağın şəxsiyyəti açıqlanmamalı və bunun qarşısının alınması üçün tədbirlər görülməlidir.

Konvensiyada insan alveri qurbanlarının vətəndaşı olduqları və ya daimi ərazisində yaşadıqları ölkəyə repatriasiya olunmaları və qayıtmaları, bu zaman onların bütün zəruri sənədlərlə təmin olunmaları, eləcə də qayıdacaqları halda yenidən eyni vəziyyətə düşməmələri və cəmiyyətə reinteqrasiya edilmələri üçün həm bu dövlətin, həm də gətirildikləri dövlətin üzərinə müvafiq öhdəliklər qoyulmuşdur.

Konvensiyanın IV fəsli çox mühüm məsələyə – cinayət-hüquqi tədbirlərə həsr olunmuşdur. İlk öncə iştirakçı dövlətlərin üzərinə bir sıra əməllərin kriminallaşdırılması öhdəliyi qoyulmuşdur. Bu əməllər aşağıdakılardır:

1) insan alveri;

2) bilə-bilə insan alveri qurbanının xidmətlərindən istifadə etmə;

3) insan alverinə imkan yaratmaq məqsədi ilə hər hansı fərdin şəxsiyyət vəsiqəsinin və ya digər müvafiq sənədinin saxtalaşdırılması və ya onun belə sənədlə təmin olunması.

Eyni zamanda dövlətlər bu əməllərin törədilməsinə kömək edilməsini, habelə bu əməllərin törədilməsinə cəhd edilməsini də cinayət hesab etməlidirlər. Dövlətlərin üzərinə vəzifə qoyulur ki, göstərilən cinayət əməllərinə görə uyğun cəzalar, o cümlədən şəxsin ekstradisiyasına əsas verən azadlıqdan məhrum etmə cəzasını nəzərdə tutsunlar.

Konvensiya iştirakçı dövlətlərdən tələb edir ki, insan alverinə cəlb olunmuş hüquqi şəxslərin də məsuliyyəti qanunvericilikdə nəzərdə

tutulsun. Dövlətin hüquqi sisteminin xüsusiyyətlərindən asılı olaraq, hüquqi şəxs cinayət, mülki və ya inzibati məsuliyyət daşıya bilər.

Konvensiya müəyyən edir ki, yuxarıda sadalanan cinayət əməllərinin törədilməsinə görə cinayət təqibinin başlanması üçün zərərçəkmişin şikayəti (müraciəti) əsas olmaya da bilər. Sənəddə iştirakçı dövlətlərin üzərinə cinayət prosesinin gedişi zamanı və bundan sonra aşağıdakı şəxslərin mümkün qisasalmadan və hədələmədən səmərəli müdafiəsini təmin etmək məqsədi ilə zəruri qanunvericilik və ya digər tədbirlərin görülməsi vəzifəsi qoyulmuşdur:

a) zərərçəkmişlər (qurbanlar);

b) törədilmiş cinayətlər barədə cinayət təqibi orqanlarına məlumat vermiş və ya həmin orqanlarla hər hansı digər formada əməkdaşlıq etmiş şəxslər;

c) törədilmiş cinayət əməlləri ilə bağlı ifadə vermiş şahidlər;

ç) lazım gəldikdə, zərərçəkmişlərin və şahidlərin ailə üzvləri.

Yuxarıda sadalanan şəxslərin müdafiəsi müxtəlif formalarda həyata keçirilə bilər: məsələn, fiziki mühafizə; onların başqa yerə köçürülməsi; şəxsiyyəti müəyyənləşdirən sənədlərin dəyişdirilməsi və iş tapmaqda kömək göstərilməsi. Zərərçəkmiş uşaqdırsa, Konvensiya uşağın ən yaxşı maraqlarını nəzərə alaraq, xüsusi müdafiə tədbirlərinin görülməsini tələb edir. Müvafiq müdafiə ilə habelə insan alveri ilə mübarizədə iştirak edən və insan alveri qurbanlarına yardım göstərən qrupların, fondların, assosiasiyaların və ya qeyri-hökumət təşkilatlarının üzvləri təmin olunmalıdırlar.

Konvensiyada beynəlxalq cinayət hüququnun qəbul edilmiş prinsiplərinə uyğun olaraq, insan alveri cinayətini törətmiş şəxslər üzərində yurisdiksiya məsələləri tənzimlənmişdir.

Müəyyən olunmuşdur ki, insan alverinin qarşısının alınması, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi, habelə bu cinayət əməlləri ilə bağlı cinayət təqibinin həyata keçirilməsi məqsədi ilə iştirakçı dövlətlər bir-biri ilə əməkdaşlıq etməlidirlər, o cümlədən bir-birinə bütün zəruri informasiyanı təqdim etməlidirlər (bax: İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasının VI fəsli).

Konvensiyanın xüsusi qeyd edilməli cəhətlərindən biri də onun müddəalarının iştirakçı dövlətlər tərəfindən həyata keçirilməsinə nəzarət etməli olan monitorinq mexanizmi nəzərdə tutmasıdır. Bu funksiya xüsusi yaradılacaq bir quruma – GRETA-ya (İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər qrupuna) həvalə edilmişdir. Konvensiyada GRETA-nın tərkibi, üzvlərinin seçilməsi qaydası və mandatı müəyyən edilmişdir.

GRETA-nın ən azı 10 və ən çoxu 15 üzvdən ibarət tərkibdə fəaliyyət göstərəcəyi nəzərdə tutulmuşdur. Üzvlər İştirakçı dövlətlərin Komitəsi adlanan və Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələrindən və Konvensiyaya qoşulmuş Avropa Şurasının üzvü olmayan dövlətlərin nümayəndələrindən təşkil edilən qurum tərəfindən 4 ilə müddətinə seçilirlər və onlar daha bir dəfə yenidən seçilə bilərlər. Qrupun üzvləri müstəqil və qərəzsiz fəaliyyət göstərməli, vətəndaşı olduqları dövlətdən Qrupdakı fəaliyyətləri ilə bağlı heç bir göstəriş almamalıdırlar.

Konvensiyanın iştiraкçı dövlətlərindəкi vəziyyətin qiymətləndirilməsi prosesi müddəti GRETA tərəfindən müəyyən edilən raundlara bölünür. GRETA hər bir qiymətləndirmə raundu üçün sorğu vərəqəsi hazırlaya və müvafiq dövlətə göndərə bilər. Dövlət qoyulmuş bütün suallara cavab verməli, eləcə də bütün digər tələb olunan məlumatı təqdim etməlidir. GRETA əlavə olaraq ölкəyə səfərlər təşкil edə bilər.

Qiymətləndirmə prosesi başa çatdıqdan sonra GRETA Konvensiyanın müddəalarının yerinə yetirilməsinə dair təhlili, eləcə də aşкar edilmiş problemlərin aradan qaldırılması yolları barədə onun təкliflərini özündə ehtiva edən məruzə hazırlayır. Məruzənin layihəsi şərh üçün müvafiq dövlətə göndərilir. Həmin dövlətin təqdim etdiyi şərh yeкun məruzə hazırlanarкən nəzərə alınır. Bundan sonra GRETA məruzəni və müvafiq dövlətin Konvensiyanın müddəalarını yerinə yetirməsi ilə bağlı gördüyü tədbirlər barədə yeкun qeydlərini qəbul edir. Məruzə və yeкun qeydlər (nəticələr) həmin dövlətə və İştiraкçı dövlətlərin Komitəsinə təqdim olunur. Qəbul olunan кimi məruzə və yeкun qeydlər müvafiq dövlətin şərhləri ilə birliкdə dərc edilir.

İştiraкçı dövlətlərin Komitəsi GRETA-nın məruzəsi və yeкun qeydləri əsasında müvafiq dövlətə ünvanlanan tövsiyələr qəbul edə bilər və bu tövsiyələrin yerinə yetirilməsi barədə həmin dövlətin məlumat təqdim etməsi üçün vaxt təyin edə bilər.

Nəhayət, Konvensiyanın 45-ci maddəsində belə bir vacib müddəa öz əкsini tapmışdır кi, 31-ci maddənin 2-ci bəndindən başqa (insan alveri cinayəti ilə bağlı yurisdiкsiyanın təyin edilməsi), Konvensiyanın heç bir müddəası barədə qeyd-şərt irəli sürülə bilməz.

Yuxarıda apardığımız qısa təhlildən görünür кi, insan alverinə qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası кifayət qədər əhatəli, insan alveri ilə mübarizə sahəsində bütün prinsipial məqamları özündə əкs etdirən bir sənəddir. Hesab ediriк кi, Azərbaycan Respubliкası tezliкlə bu vacib regional sənədə qoşulacaq və onun dövlətdaxili implementasiyası üçün bütün zəruri tədbirləri həyata кeçirəcəкdir.

### ЯДЯБИЙЙАТ


1. Action against trafficking in human beings for the purpose of sexual exploitation: Recommendation no. R(2000)11 adopted by the Committee of Ministers on 19 May 2000 and explanatory memorandum. Council of Europe. Directorate General of Human Rights. Equality Division. Strasbourg: Council of Europe, 2004.
2. Action against trafficking in human beings: prevention, protection and prosecution: proceedings of the regional seminar, Bucharest, Romania, 4-5 April 2006. Council of Europe. Directorate General of Human Rights. Equality Division. Strasbourg: Council of Europe, 2006.
3. Council of Europe Convention on Action against Trafficking in Human Beings. Council of Europe Treaty Series/197. Strasbourg, 2005.
4. Drew S. Human Trafficking: A Modern Form of Slavery? In: European Human Rights Law Review, Issue 4, 2002, p. 481-492.
5. McSherry B. Trafficking in women and forced migration: moving victims across the border of crime into the domain of human rights. In: International journal of human rights, 2008, vol. 12, no. 1, p. 67-87.
6. Obakata T. Human Trafficking, Human Rights, and the Nationality, Immigration and Asylum Act 2002. In: European Human Rights Law Review, vol. 4, 2003.

7. Obakata T. A Human Rights Framework to Address Trafficking of Human Beings. In: Netherlands Quarterly of Human Rights, vol. 24/3, 2006.
8. Pearson E. Human Traffic, Human Rights: Redefining Victim Protection. Anti-Slavery International, London, 2002, p. 100-101.
9. Sembacher A. The Council of Europe convention on action against trafficking in human beings. In: Tulane Journal of International and Comparative Law, 2006, vol. 14, No. 2, p. 435-454.
10. http://www.coe.int/t/dg2/trafficking/campaign

## КОНВЕНЦИЯ СОВЕТА ЕВРОПЫ О ПРОТИВОДЕЙСТВИИ ТОРГОВЛИ ЛЮДЬМИ

**Т.И.ИБАДОВ**

**РЕЗЮМЕ**

В настоящей статье анализируются основные положения Конвенции Совета Европы о противодействии торговле людьми. Конвенция охарактеризована автором как всеохватывающий договор, сосредоточенный в основном на защите жертв торговли людьми и соблюдении их прав. Она направлена также на предупреждение торговли людьми, а также на преследование тех, кто такой торговлей занимается. Конвенция применяется ко всем формам торговли людьми - на национальном или транснациональном уровне, как связанным, так и не связанным с организованной преступностью. Конвенция применяется ко всем лицам независимо от того, кто является жертвой торговли: женщины, мужчины или дети, а также независимо от форм эксплуатации: сексуальной эксплуатации, насильственного труда или услуг и т.д. Помимо того, Конвенция предусматривает создание независимого механизма мониторинга, который призван гарантировать соблюдение государствами-участниками ее положений.

## COUNCIL OF EUROPE CONVENTION ON ACTION AGAINST TRAFFICKING IN HUMAN BEINGS

**T.I.IBADOV**

**SUMMARY**

The purpose of this article is to analyze main provisions of the Council of Europe Convention on Action against Trafficking in Human Beings. The author underlines that the Convention is a comprehensive treaty mainly focused on the protection of victims of trafficking and the safeguard of their rights. It also aims at preventing trafficking as well as prosecuting traffickers. The Convention applies to all forms of trafficking; whether national or transnational, whether or not related to organized crime. It applies whoever the victim: women, men or children and whatever the form of exploitation: sexual exploitation, forced labor or services, etc. Furthermore, the Convention provides for the setting up of an independent monitoring mechanism guaranteeing parties’ compliance with its provisions.